AZƏRBAYCAN RESPUBLİKASININ
AUDİTORLAR PALATASI

"ELVI AUDIT" MMC
İCAZƏ № AT/186

THE CHAMBER OF AUDITORS
OF AZERBAIJAN REPUBLIC

" ELVI AUDIT " LLC
LİCENSE № AT/186

VÖEN 1702360181

Səbail rayonu, A.Quliyev küçəsi, 10, m. 4, Bakı, Azərbaycan +99450-353-30-62
Sabail district, A.Guliyev street, 10, apartment 4 Baku, Azerbaijan +99450-353-30-62

# MÜSTƏQİL AUDİTORUN HESABATI

## "BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ" Hüquqi Publik Şəxsin təsisçilərinə (rəhbərlərinə)

## AUDİTOR RƏYİ № SMEcksb7qc

**Rəy: Müsbət Rəy**

Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilmiş 18 mart 2019-cu il tarixli AT/186 saylı İCAZƏ-yə əsasən "ELVI AUDIT" MMC (VÖEN: 1702360181) və "BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ" Hüquqi Publik Şəxsi (VÖEN: 1404647361) (Bundan sonra - Sifarişçi) arasında bağlanılmış AB 01-14/22 saylı 15 fevral 2023-cü il tarixli müqaviləyə əsasən təsərrüfat fəaliyyətinin auditi aparıldı.

"BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ"nin (bundan sonra Publik Hüquqi Şəxs) 31 dekabr 2022-ci il tarixə (01.01.2022-ci il tarixdən 31.12.2022-ci il tarixədək) olan dövr üzrə maliyyə vəziyyətinə dair hesabatından, məcmu gəlirlərə dair hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət maliyyə hesabatlarının auditi aparıldı.

Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları Publik Hüquqi Şəxsin 31 dekabr 2022-ci il tarixə (01.01.2022-ci il tarixdən 31.12.2022-ci il tarixədək) olan dövr üzrə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

**Rəy üçün əsaslar:**

Audit Beynəlxalq audit standartlarına (BAS) uyğun aparıld. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Publik Hüquqi Şəxsdən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və Publik Hüquqi Şəxsin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti:**

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Publik Hüquqi Şəxsi ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Publik Hüquqi Şəxsin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.